**OXUCU RƏYİ**

# EYNULLA MƏDƏTLİNİN “HEYDƏR ƏLİYEVİN SİYASİ İRSİ: AZƏRBAYCANÇILIQ VƏ AZƏRBAYCAN–TÜRKİYƏ BİRLİYİNİN FƏLSƏFƏSİ” MONOQRAFİYASI HAQQINDA

**Şölət Zeynalov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
aparıcı elmi işçi, f.f.d, dosent, **Azərbaycan**

***Heydər Əliyev:*** *Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı əbədidir, sarsılmazdır. Biz çalışacağıq ki, bu dostluğu, qardaşlığı gündən-günə möhkəmləndirək və yüksəklərə qaldıraq*[1].

Mübaliğəsiz demək olar ki, xalqları, millətləri, cəmiyyət və dövlətləri böyük ideyalar, ideologiyalar və böyük şəxsiyyətlər, dühalar yaradırlar. Bu dahilər dövləti və xalqı tarixin yaratdığı çətin anlardan, keşməkeşli situasiyalardan, böhranlardan, ziqzaqlardan keçirərək böyük üfüqlərə çatdırır, onun təməl prinsiplərini müəyyən edir və həmin xalqın gələcəyinin formalaşmasında müstəsna rol oynayırlar. Bu baxımdan tarix daima təkrar-təkrar tədqiq olunması və yazılması, interpretasiyası zəruri olan sivilizasion bir prosesdir. Əslində, bu prosesi insanın öz yaratdığı dəyərlərlə, təsisat və reallıqlarla dialoqu da adlandırmaq olar. Ancaq aqillər demişkən, ola bilər ki, bu proses yalnız dialoq kimi deyil, tarixin cəmiyyət, insanın, sivilizasiya taleyində, həyatında həm də qarşılıqlı ünsiyyəti, – kimin üçünsə monoloqu kimi də qiymətləndirilə bilər.

Aydındır ki, tarixin obyektiv dərk olunması asan məsələ deyildir. Yəni, söhbət ondan gedir ki, istər fərd olaraq insanlar, istərsə də cəmiyyət və xalqlar öz həyat və fəaliyyətlərində daima ideala doğru can atırlar və demək olar ki, bu yolda qarşılaşdıqları istənilən situasiyalarda hər bir identiklik və ya təsisat ideya və ideologiya uğrunda mübarizədə özünün daha düzgün yolda olduğunu düşünür və haqlı sayırlar. Ola bilər ki, həyatın, siyasətin, ideologiya və dəyərlərin də mənası bundadır: bəşəri, milli, əxlaqi və insani dəyərlər uğrunda mübarizə! Vaxtilə alman filosofu İ.Kant hesab edirdi ki, həyatı mənalı edən şey insanın, deməli, həm də cəmiyyətin yetişmək istədiyi və can atdığı idealdır. Ancaq ədəbiyyatdan da, real insani təcrübədən də elmi təfəkkürə məlumdur ki, ideala çatmaq, onu tarixin yaratdığı monolit həqiqət kimi dərk etmək, onunla təmənnasız dialoqda olmaq elə də asan məsələ deyildir. Bu baxımdan ona görə də tarixin həqiqi faktlar əsasında düzgün yazılması, obyektiv tədqiqi, millətin, dövlət və dövlətçilik tarixinin ən zəruri şərtlərindəndir. Müşahidələr göstərir ki, tarix və tarixin memarları cəmiyyəti, fərd və identikliyi fiziki anlamda əbədi xoşbəxt edə bilməsələr də, mənəvi baxımdan əbədi səadətə tam qovuşdura, ona dünyada necə yaşamağı, necə fəaliyyət göstərməyi, necə olmağı, necə “ölməyi” öyrədə bilər. Təsadüfi deyildir ki, müasir ekzistensialist filosof Martin Haydegger izah edirdi ki, böyük olmaq böyüklükdən – böyük düşünməkdən başlanır. Böyük olmaq, böyük düşünmək, oddan keçərək katarsis olunmaq isə, şübhəsiz, müdriklik sənətidir ki, daima böyük şəxsiyyətlər, böyük dühalar ona – bu sənətə doğru can atırlar. Nəzəri fikir tarixinə müraciət etdikdə görürük ki, istər Şərqdə, istərsə də Qərbdə tarixən filosoflar, personalist nəzəriyyəçilər böyük dühaları, şəxsiyyətləri, strateqləri Tanrıların Yer üzünə hədiyyəsi hesab etmişlər. Məhz Ulu öndər Heydər Əliyev də bu baxımdan müasir tariximizin mehvərini yaradan onu tarixin yaratdığı monoloji ziqzaqlarda, labirintlərdə itməyə, səmt küləklərinin gətirdiyi tale gəmisi kimi okeanların dərinliklərinə qərq olmağa qoymayan tarix və tanrının XX əsr dünyasına, insanına bəxş etdiyi misilsiz əbədiyaşar siyasi xadimlərindən biridir.

Dahi şəxsiyyətlərin istər cəmiyyət həyatında, istərsə də dövlətçilik və tarix baxımından fəaliyyətlərinin araşdırılması, ictimai-siyasi fikir tarixində əhəmiyyəti həmişə vacib hesab olunmuşdur. XX əsr Azərbaycan tarixinə nəzər saldıqda xalqın və dövlətin, cəmiyyət və ölkənin inkişaf kursunun Heydər Əliyev dühasının siyasəti və dövlətçilik irsinin dialoqu kontekstində araşdırılması, onun elmi-fəlsəfi, siyasi aspektlərinin həm ölkə daxilində, həm də xarici ölkələrdə

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab, Bakı, “Azərnəşr”, 2000, s. 280-281.

təbliği və öyrənilməsi qədər son dərəcə aktual olan ikinci bir hadisəni təsəvvür etmək çətindir. Bu fenomenin mahiyyəti ondadır ki, o, tarixi yaradır, ona yön verir, onun paradiqmalarını müəyyən etməklə gələcək nəsillərə əvəzsiz bir irs qoyur. Geniş auditoriyanın və intellektual oxucunun diqqətinə çatdırılmış haqqında bəhs olunan monoqrafiyanı son dərəcə əvəzsiz edən də məhz budur: Heydər Əliyevin bəşər tarixində, Azərbaycan və region xalqlarının həyatında fəaliyyəti və irsinin, kiçik bir hissəsini də olsa, tədqiqata cəlb etmək, onun fəlsəfəsi və ziyasından insanlara təmənnasız hədiyyə vermək!

2023-cü ildə “Heydər Əliyev ili” çərçivəsində AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru, “Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq fəlsəfəsi” şöbəsinin müdiri Eynulla Mədətlinin imzası ilə “Heydər Əliyevin siyasi irsi: Azərbaycançılıq və Azərbaycan–Türkiyə birliyinin fəlsəfəsi” adlı çox sanballı elmi-fəlsəfi və müasir dövlətçiliyimiz baxımından aktual olan monoqrafiya işıq üzü görmüşdür. Elmi-siyasi-ideoloji kontekstdə qələmə alınmış əsərlə tanışlıq bir daha təsdiq edir ki, həmin çətin illərdə ölkəmizə rəhbərlik etmiş nəhəng siyasi xadim, Ulu öndər Heydər Əliyevin dühası, siyasi irsi, dövlətçilik fəlsəfəsi, həqiqətən də, daima, dönə-dönə elmi-nəzəri, ictimai-siyasi anlamda araşdırılmaq üçün əvəzsiz bir milli xəzinədir. Bu xəzinənin hansı istiqamətinə, hansı mərhələsinə müraciət edirsən et, mütləq bu nəhəng milli irsin ziyası fonunda sanballı bir xəzinə meydana çıxacaqdır. Bu həm də onunla bağlıdır ki, dahilərin qoyduğu iz, təyin etdiyi strategiya, siyasi-ideoloji xətt, dövlətçilik meyarı tükənməzdir, daima, dönə-dönə araşdırılmağa layıqdir. Tədqiqatın ikinci ən vacib özəlliyi ondadır ki, müəllifin əsərinin ümumi xarakteristikası oxucuda fundamental bir fikri formalaşdırır: Heydər Əliyev siyasi irsi və onun şəxsi keyfiyyətləri sübut edir ki, o, nəinki Cənubi Qafqaz və Türk dünyasi liderləri sırasında, o cümlədən XX əsr dünya siyasi şəxsiyyətləri sırasında öndə dayanan siyasi xadimlər içərisində ən öncüllərdən biri olmuşdur. Əsərin üçüncü vacib məziyyətlərindən biri aşağıdakı kimidir: müəllifin elmi-fəlsəfi təhlili oxucuda bir daha əminlik yaradır ki, Ulu öndər Heydər Əliyev XX əsrdə Azərbaycan xalqının dünya miqyasında ərsəyə gətirdiyi yeganə misilsiz liderdir, onu tariximizdə heç bir siyasi xadimlə müqayisə etmədən “Ümummilli lider” statusuna qəbul etməklə, Azərbaycan xalqı özünün ən düzgün qərarını vermişdir. Başqa sözlə desək, əsərdən aydın şəkildə hasil etmək olur ki, həqiqətən də, dövlət, xalq, millət, Azərbaycan sevgisi, dövlətçilik maraqlarının təminatı qüdrətli və strateji komandanın formalaşması, regionun digər xalqları ilə qonşuluq prinsiplərində sülh və təhlükəsizlik, strategiyada sekulyar və demokratik əsaslar, dilimizin qorunması, mədəniyyət, tarix və dinimizə sayğı, cəmiyyəti daima irəli səsləyən modern inkişaf kursu bilavasitə Heydər Əliyev məktəbinin başlıca istiqamətini təşkil etmişdir.

Məsələnin digər özəlliyi ondadır ki, bu sanballı monoqrafiyanın müəllifi həm də uzun müddət Heydər Əliyev məktəbinin, fəaliyyətinin, idarəetməsi və aurasının ətrafında, əhatəsində olmuş və Heydər Əliyev akademiyasının meyarlarından bəhrələnmişdir. Bu mükafat və tale qismətinin özəlliyi müəllifə şəksiz üstünlüklər verir ki, bu da əsərin yazılmasını maraqlı və fundamental etməklə yanaşı, monoqrafiyanı daha da oxunaqlı və canlı edir. Başqa formada desək, əsərin hansı bölümü, fəsil və altbaşlıqları ilə təmasda olursan ol, aydın şəkildə hiss olunur ki, müəllif əsərin yazılmasını qarşısına məqsəd qoyarkən onun yalnız siyasi, fəlsəfi, ideologi və tarixi tərəflərini deyil, həm də mənəvi, milli, insani, ruhi tərəflərini qabartmağı, göstərməyi əsas məqsəd kimi qarşıya qoymuş və şübhəsiz buna nail olmuşdur. Bu onunla bağlıdır ki, böyük şəxsiyyətlər, liderlər, sərkərdələr yalnız tarixin yaratdığı dahilər, “apollonlar”, memarlar deyillər, onların da hissləri, duyğuları, sevgiləri vardır. Ona görə də müəllifin yazdığı bu əsəri yalnız iki dövlətin uğurlu dostluğu və qardaşlığı, yaxud siyasət və ideologiya kontekstində mənalandırmaq deyil, həm də insanların, xalq və millətlərin taleyinə hopmuş həyat hekayəsi kimi oxumaq, fikirmizcə, daha doğru olardı. Başqa sözlə desək, əsərlə tanışlıq zamanı həm müəllifin taleyində, həm də monoqrafiyanın bütövlükdə məzmununda bilavasitə Ulu öndər Heydər Əliyevin nəzərlərinin, məktəbinin, dühasının ziyası, nuru və siyasi xəttinin hənirtisi ən yüksək şəkildə hiss olunur. Bu baxımdan ictimai-siyasi mühitdə öz elmi imzası və fəaliyyəti ilə tanınan, həmçinin uzun illər xarici dövlətlərdə ölkəmizi yüksək səviyyədə Fövqəladə və Səlahiyyətli Səfir kimi təmsil edən, gənclik illərində Ulu öndərin dövlətçilik təcrübəsindən, siyasi irsinin nəzəri və praktik əsaslarından bəhrələnmək qisməti olan müəllifin Heydər Əliyevin siyasi irsindən sanballı bir

əsər ortaya qoyması qətiyyən təsadüfi sayıla bilməz – Heydər Əliyev məktəbi böyük bir xəzinədir və müəllif buradan öz biliyi, səriştəsi, qisməti qədər bəhrələnmişdir. Bu da əsərin digər bir uğurudur.

Məhz bu səbəbdən də azərbaycançılıq fəlsəfəsi və Azərbaycan-Türkiyə münasibətlərində Ulu öndər Heydər Əliyev məktəbinin elmi-fəlsəfi əsaslarından müəllifin bəhs etməsi elmi mühit üçün həm bir stimul, həm də bir yenilik olmaqla əsərin fundamentallığını daha da artırmış olur. Monoqrafiya XX əsrin siyasi nəhənglərindən biri olan, Azərbaycan dövlətçilik tarixində misilsiz xidmətləri ilə tariximizin yeni məhvərini qoyan, onu dünyada demokratik, bəşəri əsaslarla tanıdan Ulu öndərin siyasi irsi kontekstində Azərbaycan-Türkiyə münasibətlərinin, birliyinin, “Bir millət-iki dövlət” formulunun müasir dinamikası, inkişaf perspektivləri və regionda yaratdığı strateji təhlükəsizlik məsələlərinə həsr olunmuşdur. Müəllifin elmi mühit və geniş oxucu kütləsinin diqqətinə təqdim etdiyi əsərdə ilk əvvəl nəzəri olaraq siyasi irsin elmi-fəlsəfi mahiyyəti, onun tarixi rolu, xalqın, dövlətin, cəmiyyətin həyatında oynadığı əhəmiyyətin vacibliyini çox ətraflı təqdim edir. Müstəqilliyimizin ilk illərində baş verən çətinliklərdən, həmin dövrdə yaranan müxtəlif ziddiyyətlərdən qurtulmaqda Heydər Əliyev dühasının böyüklüyünə, miqyasına vurğu edərək müəlllif liderin siyasi təcrübəsinin əvəzsizliyindən, dövlətçilik təcrübəsinin zənginliyindən, tarixdə xalqların taleyində liderlərin, rəhbər və sərkərdələrin oynadığı vacib əhəmiyyətdən bəhs edərək əsərin girişində fundamental bir tezisi qeyd edir: *“Tarix sübut edir ki, siyasi irs əsasən xalqların yetişdirib tarix səhnəsinə çıxardığı rəhbərlərin, sərkərdələrin, görkəmli şəxsiyyətlərin genişmiqyaslı ictimai-siyasi fəaliyyəti ilə formalaşır. Bu siyasi liderlərin şəxsi məziyyətləri, milli-mənəvi keyfiyyətləri fonunda milli iradə formalaşır, milli inkişaf yolu müəyyənləşir, milli dövlətçilik bərqərar olur, beləliklə də, zəngin və əbədi milli irs yaranır. Yəni, xalqın önündə gedən siyasi liderin, onun inandığı, güvəndiyi rəhbərin, xalqın varlığı və müqəddəratı üçün məsuliyyət daşıyan sərkərdənin şəxsi keyfiyyətləri həm də dövlətlərin, xalqların taleyini müəyyənləşdirən vacib amildir” (s.4).* Bu vacib tezislə müəllif təsdiq edir ki, xalqın, cəmiyyətin, dövlətin siyasi irsi yalnız öz-özünə tarixi axın və ya sadə bir düzxətli inkişafla deyil, məhz burada şəxsiyyətin bilavasitə, dinamik fəaliyyəti, xarizması milli ideya kontekstində fundamental strategiyası nəticəsində yaranır. Müəllif tarixi ekskursun və tarixi prosesdə şəxsiyyət amilinin zəruruliyini əsərin birinci fəslində akademik İsa Həbibbəyliyə istinadən belə bir fikri müdafiə edir. “Sovet hakimiyyəti dövründə Heydər Əliyevin apardığı məqsədyönlü və düşünülmüş millilik və vətənpərvərlik siyasətinə görə ölkəmiz müstəqillik qazandıqdan sonra digər dövlət müstəqilliyi əldə etmiş postsovet ölkələri ilə müqayisədə bir neçə addım irəlidə olmuşdur” (səh. 11). Müəllif həmçinin əsərin birinci fəslində məntiqi olaraq Heydər Əliyev siyasi irsinin elmi-fəlsəfi mahiyyəti, o cümlədən azərbaycançılıq ideyası və ideologiyası, Ulu öndərin siyasi irsinin özəl xüsusiyyətləri, milli dövlətçilik və milli məfkurənin anlamı, mahiyyəti barədə ətraflı bəhs etmişdir. Eyni zamanda bu fəsildə Ulu öndərin Azərbaycana qayıdışı, onun böyük çətinliklərə baxmayaraq, yenidən xalqın təkidiylə siyasi fəaliyyətə başlaması, dövlətçiliyi ən müxtəlif səviyyəli təhlükələrdən xilas etməsi, Heydər Əliyev fenomeninin Naxçıvan dövrü, onun xilaskarlıq missiyası haqqında ətraflı bəhs olunmuşdur. Müəllif əsərin ideyası və metodoloji qoyuluşundan çıxış edərək həmin dövrdə Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının düşdüyü çətin böhrandan, iqtisadi-siyasi ziddiyyətlərdən çıxarılması səylərindən, bu istiqamətdə Türkiyə Cümhuriyyəti ilə əlaqə və münasibətlərinin qurulmasından, “Ümid körpüsü”nün təməllərinin nəzəri və praktiki əhəmiyyətindən bəhs etmişdir. Əsərin birinci fəsli “Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq” adlanır. Müəllif məntiqi olaraq bu fəsildə elmi-nəzəri araşdırmanın xüsusiyyətlərindən çıxış edərək Ulu öndərin siyasi irsinin özəllikləri, Azərbaycanın milli məfkurəsinin və milli dövlətçilik fəlsəfəsinin formalaşmasında Heydər Əliyev şəxsiyyətinin müstəsna əhəmiyyətindən, onun Azərbaycana qayıdışından, böyük siyasi xadimin siyasi irsinin substansiv və funksional aspektlərini araşdırmağı qarşıya məqsəd qoymuşdur. Əsərlə tanışlıq göstərir ki, Ulu öndərin Azərbaycana qayıdışının Naxçıvan mərhələsi Azərbaycanın suverenliyinin təmin edilməsi sahəsində onun xilaskar missiyasının həyata keçirilməsi həmin dövrdə Naxçıvan MR-in iqtisadi, siyasi böhrandan çıxarılması sahəsində Türkiyə ilə təmasların və gələcək strateji əməkdaşlığın müəyyən olunması yalnız Heydər Əliyev dühasına məxsus olan bir strategiya ola bilərdi. Əsərin ikinci fəsli “Heydər Əliyevin siyasi irsi və qardaş Türkiyə Cümhuriyyəti ilə münasibətlər” adlanır ki, bu fəsildə müəllif maraqlı, sanballı şəkildə müasir gerçəklikləri araşdırma obyektinə çevirmişdir. Ulu öndər Heydər Əliyevin “Bir millət-

iki dövlət" konsepsiyasının tarixi- siyasi aspektinin Naxçıvan mərhələsini, onun Türkiyə Cümhuriyyətinə səfərlərini, iki qardaş ölkə arasında strateji tərəfdaşlığın nəzəri və təcrübi aspektlərini bu fəsildə izah edən müəllif həmçinin burada Heydər Əliyevin "Bir millət-iki dövlət" düsturunu – Azərbaycan-Türkiyə birliyinin strategiya və fəlsəfəsinin nəzəri aspektlərini oxucunun diqqətinə çatdırır, onun tarix baxımından fundamentallığını göstərir.

Əsəri maraqlı və oxunaqlı edən məziyyətlərdən biri budur ki, müəllifin qələmə aldığı bu fundamental monoqrafiya yalnız tədqiqat xarakteri daşımır, o həm də elmi-publisist və fəlsəfi xüsusiyyətləri ilə oxucunu heyrətləndirə bilir.

Üçüncü fəsildə müəllif Ulu öndərin siyasi irsində dövlətçilik ənənələri və mədəniyyət fəlsəfəsini araşdırma obyektinə çevirir. Burada E.Mədətli özünün tarix bilgisindən çıxış edərək, məhz tarixin fəlsəfəsinə fəlsəfi aspektdən yanaşaraq Ulu öndər Heydər Əliyev irsində Azərbaycan Xalq Cümhuriyyətinə münasibət və varislik məsələsinin tarixi baxımdan əhəmiyyətini göstərir. Bu fəsildə həmçinin Heydər Əliyev və mədəniyyət siyasətində milli-mənəvi dəyərlər, İslam həmrəyliyi təcrübəsi və milli xüsusiyyətlər, Ulu öndərin irsində Azərbaycan xalq mədəniyyətinə münasibətin fəlsəfəsi, Heydər Əliyev şəxsiyyətinin miqyası və onun sərhədləri aşan cazibəsi araşdırma predmetinə çevrilərək oxuculara təqdim olunur. Məsələn, müəllif yazır: "Muxtar Respublikanın üzləşdiyi bütün subyektiv və obyektiv xarakterli çətinliklərə baxmayaraq, Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi ilə ilk gündən müstəqil Azərbaycan dövlətçiliyinin quruculuğuna başlanıldı. O zaman üçün ən ümdə aparıcı vəzifə Muxtar Respublikanı işğalçı Ermənistanın getdikcə genişlənən təcavüzündən qorumaq idi" (səh. 51). Həqiqətən də, etiraf etməliyik ki, Azərbaycan dövlətçilik tarixində ötən əsrin 90-cı illərdəki qədər keşməkeşli bir zamanı təsəvvür etmək çətindir. Sonrakı tarixi təcrübə sübut etdi ki, 1991-1993-cü illərdə Heydər Əliyevin Naxçıvan MR-in Ali Məclisinə rəhbərliyi məhz Naxçıvanın o dövrdə qurtuluşuna çevrildi.

Heydər Əliyev siyasətinin miqyasını, təbii ki, bir əsərlə ümumiləşdirmək, geniş auditoriyalara çatdırmaq mümkün deyil. Təhsil, səhiyyə, sosial strategiya, sülh və təhlükəsizlik, ölkənin xaosdan çıxarılması, dayanıqlı və davamlı inkişaf kursuna yönəlmək – bütün bunlar həmin dövr üçün elə də asan deyildi. Müəllif haqlı olaraq əsərdə qeyd edir: "Dünya xalqlarının inkişaf və tərəqqisində təhsilin və elmin əvəzsiz rolunu vurğulayan Heydər Əliyev qeyd etdi ki, "*bir şeyi bilmək lazımdır ki, əgər hər hansı bir xalq inkişaf etmək istəyirsə, o, gərək bəşər mədəniyyətinə, bəşər elminə yiyələnsin. Mən 20 il bundan öncə də, indi də çox arzusunda olmuşam ki, azərbaycanlı balaları Türkiyədə, İranda, Rusiyada, Almaniyada, Ərəbistanda, İtaliyada, İngiltərədə, Amerikada, Fransada və hətta Hindistanda, Çində belə, təhsil alsınlar. Çünki öz içimizdə olan biliklər özümüzdədir və bunu heç kəs bizim əlimizdən ala bilməz. Ancaq dünyanın cürbəcür ölkələrindəki təhsil sistemlərindən istifadə edərək, böyük elmi nailiyyətlərə müvəffəq olaraq xalqı daha da irəliyə aparmaq olar*" (səh. 134).

Müəllifin böyük sevgi və peşəkarlıqla qələmə aldığı əsəri maraqlı edən əsas xüsusiyyətlərdən biri də odur ki, monoqrafiya yalnız siyasi, ideoloji, fəlsəfi və s. xüsusiyyətlərin interpretasiyası ilə məhdudlaşmır. Burada müəllif Ulu öndər Heydər Əliyevin bir növ milli identikliyə, dilimizə, dinimizə, mənəvi dəyərlərimizə ekstensial və ontoloji anlamda dərin münasibəti ilə üz-üzə qalır, canlı şəkildə elə bil ki, onunla danışır, onun daxili aləmi ilə təmasda olur, dahi liderin milli xüsusiyyətlərə, milli irsə, milli kimliyə nə qədər önəm verdiyinə əyani şahid olur. Müəllif Ulu öndərin canlı dialoquna istinad edərək yazır: "Heydər Əliyev incə mənayüklü yumora malik idi. Bəzən bu, kinayə və məzəmmət qarışıq ifadə kimi səslənirdi, yeri gələndə bundan məharətlə istifadə edirdi, hətta rəsmi görüşlərdə də bəzən belə kinayəli yumordan istifadə edirdi. Atalar sözlərindən, zərbi-məsəllərdən yerində istifadə edirdi, özünün işlətdiyi ifadələrin bir çoxu da atalar sözünə, zərbi-məsələ çevrilirdi. Məsələn deyirdi: *Öz ana dilində danışa bilməyən adam şikəstdir*" (səh. 296). Bu onu göstərirdi ki, Ulu öndər öz xalqını, ana dilini, milli dövlətçiliyini öz varlığından əziz tutur, onu vətəndaş mövcudluğunun məhvəri hesab edirdi.

Sonda intellektual oxuculara yalnız əsəri oxumalarını tövsiyə edə bilərik. Bu zaman onlar Ulu öndər Heydər Əliyevin siyasi və dövlətçilik irsinin fundamentallığı, onun gələcəyə hesablanmış strategiyası ilə yanaşı, oxucunun burada Ulu öndərin insani keyfiyyətlərinin, bəşəri xüsusiyyətlərinin, həssas qəlbinin bilavasitə sadəliyi və son dərəcə nəhəngliyi ilə rastlaşacaqlarına və heyrətlənəcəklərinə əminliklə söz verə bilərik. Ona görə də bir daha əminliklə qeyd edə bilərik:

dahilər ölmürlər, onlar yalnız bu dünyanı fiziki anlamda tərk edirlər, onların yaratdıqları dəyərlər, təsisatlar, dünya irsinə verdikləri xəzinələr daima insanlığa, dünyada sülh və əmin-amanlığın, humanizm və vəhdətin yaranmasını şərtləndirərək bəşəri irsə xidmət edir. Bu baxımdan Azərbaycan-Türkiyə əlaqələri də, Ulu öndərin qeyd etdiyi kimi, “Bir millət-iki dövlət” olaraq daim inkişaf edəcək, xalqlarımızın sevinc-kədəri də, xoş günləri də bir olacaqdır. Tarixi tendensiya göstərir ki, onların bu münasibəti nəinki region xalqları üçün, eyni zamanda sülh və həmrəyliyi dəstəkləyən dünya ölkələri üçün də bir örnək və paradiqma kimi daima nümunə olacaq, xalqlar, dövlətlər, cəmiyyət və sivilizasiyalar arasında dialoq və əməkdaşlıq akademiyası kimi öyrəniləcəkdir.

Hazırda heç kəsə sirr deyil ki, Cənubi Qafqazda yeni bir reallıq yaranmışdır və bu reallığın yaranması, əslində, yeni əməkdaşlıqlar və sülhün əldə edilməsi üçün yeni imkanlar yaratmışdır. Bu işdə Türkiyə-Azərbaycan birliyi və əməkdaşlığı regional sülh üçün əvəzsiz bir bəşəri nümunədir. *Ali Baş Komandan Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “...Türkiyə və Azərbaycan xalqları arasında da münasibətlər, əlbəttə ki, uzunmüddətli dostluq və qardaşlıq əlaqələri üzərində qurulubdur. Bu, çox gözəl təməldir və bizim ölkələrimiz məhz bu təməl üzərində inkişaf edir, bir-birini dəstəkləyir. Mən deyərdim ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi “Azərbaycan yalnız deyil!” bəyanatı bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik”*[1].

[1] Prezident İlham Əliyevin “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışından - 21 İyul 2023 https://president.az/az/articles/view/60544